**Əmək müqaviləsi olmadan işləməyin fəsadları...**

Nazirlər Kabinetinin 2012-ci ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasında ölkə başçısının əmək münasibətlərinin rəsmiləşdirilməməsi hallarına qarşı daha təsirli tədbirlərin görülməsi ilə bağlı verdiyi tapşırığın icrasını diqqət mərkəzində saxlayan Vergilər Nazirliyi, digər dövlət qurumları ilə birgə, əmək münasibətlərinin rəsmiləşdirilməsi sahəsində sistemli iş aparır. Qanunvericiliyin imkan verdiyi inzibati vasitələrlə yanaşı, əmək müqaviləsinin imzalanmasının zəruriliyi, işçilər üçün yaratdığı üstünlüklər, pensiya təminatındakı rolu və digər mühüm məqamlar insanlara geniş izah olunur.

Bakı şəhəri, Yasamal rayon sakini Könül Məmmədovanın Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına ünvanladığı 13 oktyabr 2012-ci il tarixli şikayət ərizəsi əmək münasibətlərinin rəsmiləşdirilməməsinin hansı ciddi problemlərə səbəb olduğunu bir daha təsdiqləyir. Vətəndaş K.Məmmədova ərizəsində göstərir ki, 2012-ci ilin aprelindən əmək müqaviləsi olmadan «Şift İnternational Baku» Şirkəti adı altında fəaliyyət göstərən «U16 Reklam Hizmetleri Sanayi və Ticaret A.S. Şirkəti»nin Azərbaycandakı nümayəndəliyində çalışıb və ona qeyri-rəsmi olaraq hər ay 1500 manat məvacib verilib: «Dəfələrlə etdiyim xahişlərə baxmayaraq, mənimlə nəinki əmək müqaviləsi bağlanmayıb, hətta əmək müqaviləsinin bağlanmasından imtina edilib. Hazırda hamiləlik dövründəyəm və qanunla məzuniyyət pulunun ödənilməsi müəyyən edildiyi üçün mənimlə əmək müqaviləsinin imzalanmasından imtina edilib və mən iş yerimdən qovulmuşam».

Azərbaycan Respublikası Prezidenti Administrasiyasına ünvanlanmış və aidiyyəti üzrə Vergilər Nazirliyinə göndərilmiş müraciətə nazirlikdə baxılıb. Araşdırma zamanı «U16 Reklam Hizmetleri Sanayi və Ticaret A.S. Şirkəti»nin Azərbaycandakı nümayəndəliyinin 2012-ci il 14 avqust tarixdə vergi ödəyicisi kimi qeydiyyatdan keçdiyi müəyyən edilib. Şirkətin vergi orqanına təqdim etdiyi 2012-ci il 25 sentyabr tarixli məktubda Məmmədova Könül Qurban qızının «U16 Reklam Hizmetleri Sanayi və Ticaret A.S. Şirkəti»nin Azərbaycan nümayəndəliyində işləmədiyi bildirilib.

Araşdırma zamanı, həmçinin, vətəndaş K.Məmmədovanın təqdim etdiyi izahatda göstərilən qeyri-yaşayış sahəsinin («Piramida plaza») fiziki şəxs Nəbiyev Elşən Əlisəfa oğluna məxsus olduğu müəyyənləşdirilib. Məsələ ilə bağlı təqdim etdiyi yazılı izahatında Elşən Nəbiyev göstərilən qeyri-yaşayış sahəsinin 60 kvadratmetrini şifahi razılaşma əsasında Türkiyə Respublikası vətəndaşı Şükrü Terziyə 2011-ci ilin dekabrından 2012-ci ilin iyun ayınadək icarəyə verdiyini və «Şift İnternational Baku» adlı şirkət tanımadığını qeyd edib.

E.Nəbiyevin ərizəsinə əsasən, ona məxsus qeyri-yaşayış sahəsi təsərrüfat subyekti kimi vergi orqanında qeydiyyata alınıb və Şükrü Terziyə icarəyə verilmiş qeyri-yaşayış sahəsindən əldə etdiyi gəlirlərə görə ödəmə mənbəyində tutulan verginin bəyannamələrinin vergi orqanına təqdim edilməsi təmin olunub.

Sonda onu ida bildirək ki, konkret bu fakt əmək müqaviləsinin imzalanmamasının hansı ciddi problemlərə rəvac verdiyini bir daha təsdiqləyir. Məhz buna görə də Vergilər Nazirliyi və digər aidiyyəti dövlət qurumları əmək müqaviləsinin imzalanmasının vacibliyi ilə bağlı geniş maarifləndirmə işi aparır.

Məqsəd yalnız ölkə iqtisadiyyatında şəffaflıq və hesabatlılığı təmin etməkdən, vergidən yayınma hallarının qarşısını almaqdan ibarət deyil. Bu həqiqət bir daha diqqətə çatdırılır ki, əmək münasibətlərinin rəsmiləşdirilməsi, eləcə də əmək haqlarının düzgün göstərilməsi, ilk növbədə, gələcəyə etibarlı təminatın yaradılması deməkdir. Əmək münasibətlərinin vaxtında rəsmiləşdirilməməsi isə zaman keçdikdə təkcə işçilərin deyil, bir sıra hallarda hətta işəgötürənlərin də hüquqlarının pozulması ilə nəticələnir.

S.MUSTAFAYEV